ISSN:2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 7 (1) İlkbahar 2020 ss 685-699

Academic Journal of History and Idea, 7 (1) Spring 2020 pp 685-699

Araştırma Makalesi
Original Article

# Ərəb-Xəzər Müharibəsi və Azərbaycan

**Şahlar Şərifov***

ORCİD: 0000-0002-0395-5174

**Öz**

Ərəblər və xəzərlər arasındakı ilk əlaqə raşidi xəlifəsi Ömər ibn Xəttabın (634-644) dövrünə təsadüf edir. Ərəblər və xəzərlər arasındakı münasibətləri hərbi-siyasi, dini-mədəni və iqtisadi əlaqələrə bölmək olar, hərbi-siyasi əlaqələrin aktiv dövrü 642-656, 681-737-ci illər və Abbasilər xilafətinin (750-1258) ilk 60 ilinə təsadüf edir. Abbasi xəlifə Harun ər-Rəşidin dövründən (786-809) başlayaraq tərəflər arasında iqtisadi əlaqələr daha çox inkişaf etmişdir.Ərəb-Xəzər qarşıdurması ərəb qoşunlarının Azərbaycanın bir çox şəhərlərini, o cümlədən Dərbəndi sülh yolu ilə ələ keçirməsindən sonra baş verdi. Orta əsr ərəb mənbələrində xaqanlığa hücum edən ərəblər haqqında bir çox məlumat verilmişdir. Ərəblərin məşhur sərkərdə Salman ibn Rəbiənin başçılığı ilə 643-cü ildə Bələncər şəhərinə hücumu Ərəb-Xəzər müharibələrinin başlamasına səbəb oldu.Hərbi əməliyyatlar əsasən Azərbaycan və ona bitişik ərazilərdə baş verdiyi üçün ən çox Azərbaycan xalqı əziyyət çəkirdi. Ərəb-Xəzər müharibələri dövrü, əsasən, Əməvilər (661-750) dövrünə təsadüf edir. Bu dövrü Xəzər-türk dövlətçiliyinin birinci hissəsi kimi qiymətləndirmək olar. Bu dövrü, Xəzər dövlətinin yaranması, möhkəmlənməsi, ərazilərinin genişləndirilməsi, ən başlıcası isə, Ərəb xilafəti kimi güclü ideoloji silahla silahlanmış bir imperiyanın şimala doğru yürüşünün qarşısını məharətlə ala bilən bir güc kimi xarakterizə edə bilərik.

**Açar sözlər:** Ömər əl-Xəttab, Osman əl-Əffan, Salman ibn Rabiə, Əbdürrəhman ibn Rabiə, Mərvan ibn Məhəmməd, Məsləmə ibn Əbdülməlik, Cərrah ibn Abdullah, Dərbənd, Bələncər, ərəb, xəzər

**Gönderme Tarihi:08/03/2020** **Kabul Tarihi:27/03/2020**

* *Dosent, Dr, aparıcı elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun ilahiyyat üzrə fəlsəfə doktoru, E-Mail: hahlarsharifov@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır

CC BY

# Arab-Khazar war and Azerbaijan

**Şahlar Şərifov**
**ORCİD: 0000-0002-0395-5174**

**Abstract**

The first contact between the Arabs and the Caspian Sea dates back to the time of Rashid Khalifa, Omar bin Khattab (634-644). Conventional, the relations between Arabs and Khazars can be divided into military-political, religious-cultural and economic relations, the active period of military-political relations coincided with the first 60 years of the 642-656, 681-737, and the Abbasid caliphate (750-1258) is. From the era of Khalifa Aaron (786-809), the economic relations between the parties have developed much more. The Arab-Khazar conflict took place after the Arab armies captured many Azerbaijani cities, including the Derbent, peacefully.In the medieval Arabic sources, much information was given about the Arabs who attacked the khanate. The Arab invasion into Balandjar in 643 led by the famous military commander Salman bin Rabiah caused the Arab-Khazar wars. Most of the Azerbaijani people suffered because of military operations mainly in Azerbaijan and adjacent territories. The period of Arab-Khazars wars coincides mainly with the Abyssites (661-750). This period can be considered as the first part of the Khazar-Turkish statehood. We can characterize this period as the emergence, consolidation of the Khazar state, the expansion of its territory, and, most importantly, a powerful force capable of preventing the northern invasion of an empire armed with powerful ideological weapons such as the Arab Caliphate.

**Keywords:** Umar al-Khattab, Osman al-Afwan, Salman bin Rabi'a, Abdurrahman ibn Rabi'a, Marwan ibn Muhammad, Maslama ibn Abdulmalik, Jarrah ibn Abdallah, Derbent, Balanjar, arab, khazar

**Received Date: 08/03/2020** **Accepted Date: 27/03/2020**

Vol.7 /Num.1
March 2020

# Ара́бо-хаза́рские во́йны и Азербайджан

**Резюме**

Первая связь между арабами и хазарским морем относится ко времени Рашид Халифы, Умара ибн Хаттаб (634-644). Условно отношения арабов и хазар можно разделить на военно-политические, религиозно-культурные и экономические отношения, активный период военно-политических отношений совпал с первыми 60 годами 642-656, 681-737 годов и Аббасидского халифата (750-1258) делает. Со времен Халифы Аарона (786-809) экономические отношения между сторонами развивались гораздо больше. Арабо- хаза́рские конфликт произошел после того, как арабские армии мирно захватили многие азербайджанские города, включая Дербенте. В средневековых арабских источниках было много информации об арабах, напавших на ханство. Вторжение арабов в Баланджар в 643 году во главе с известным военачальником Салманом бен Рабиа привело к началу арабо- хазарских войн. Большая часть азербайджанского народа пострадала от военных действий, в основном в Азербайджане и на прилегающих территориях. Период арабо-каспийских войн совпадает в основном с абисситами (661-750). Этот период можно считать первой частью хазарски-турецкой государственности. Мы можем охарактеризовать этот период как возникновение, укрепление Хазарского государства, расширение его территории и, что наиболее важно, мощную силу, способную предотвратить вторжение на север империи, вооруженной мощным идеологическим оружием, таким как Арабский Халифат.

**Ключевые слова:** Умар ибн аль-Хаттаб, Осман ибн Афван, Салмана ибн Раби, Абдуррахману ибн Раби, Марван ибн Мухаммед, Масляма ибн Абдуль-Малик, Джарраха ибн Абдаллах, Дербенте, Беленджере, араб, хазар

**Получено: 08/03/2020** **Принято: 27/03/2020**

## Giriş

Xəlifə Ömər ibn Xəttabın (634-644) dövründə iqtisadi, siyasi-hərbi qüdrəti artan Ərəb xiafəti, Sasani imperiyasına son qoyaraq onun tabeliyində olan bütün ərazilərə sahib oldu. Bizansa məxsus Suriya, Livan, İordaniya, Fələstin və Misir əraziləri ələ keçirildi. Ərəblərlə Xəzərlər arasında ilk təmas xəlifə Ömərin dövrünün sonlarına təsadüf edir. Şərti olaraq ərəblər və xəzərlər arasında olan münasibətləri hərbi-siyasi, dini-mədəni və iqtisadi münasibətlərə bölmək olar ki, hərbi-siyasi münasibətlərin aktiv dövrü 642-656, 681-737-ci illər və Abbasi xilafətinin (750-1258) ilk 60 ilinə təsadüf edir. Xəlifə Harun (786-809) dövründən başlayaraq tərəflər arasında iqtisadi münasibətlər daha çox inkişaf etmişdir.

Ərəblərlə xəzərlər arasında baş verən döyüşlər Ərəb dilli mənbələrdə geniş şəkildə şərh olunmuşdur. Orta əsr müəlliflərdindən olan Əbu Məhəmməd Əhməd ibn Əsəm əl-Kufi "Kitab əl-Futuh" adlı əsərində bu döyüşlər haqqında məlumat vermişdir.[1]

## I. Raşidi xəlifələri dövründə Ərəb-Xəzər müharibələri

Əsəm əl-Kufinin verdiyi məlumata görə, ilk Ərəb-Xəzər qarşıdurması ərəb ordularının bir çox Azərbaycan şəhərlərini, o cümlədən Dərbəndi sülh yolu ilə ələ keçirməsindən sonra baş vermişdir. Orta əsr ərəb dilli mənbələrdə ərəblərin Xəzər xaqanlığına hücumları haqqında çoxlu məlumatlar olsa da, onlardan Salman ibn Rəbiənin başçılığı ilə Bələncər şəhərinə hücumu və şəhər yaxınlığında öldürülməsi haqqında məlumatlar Ərəb-Xəzər müharibələrinin başlamasına gətirib çıxarmışdır.

Ət-Təbəri ərəblərin Bələncərə iki dəfə yürüş etdiyini qeyd edir. İlk yürüş 643-cü il xəlifə Ömər ibn Xəttabın zamanında, ikinci yürüş isə 653-cü ildə xəlifə Osman ibn Əfvanın zamanında baş vermişdir.[2]

Sürəqa ibn Əmrin vəfatından sonra xəlifə Ömər ibn Xəttab tərəfindən əl-Bab hüdudlarına vali təyin edilən Əbdürrəhman ibn Rəbiə xəzərlərin ölkəsinə bir neçə uğur-

---

[1] Əbu Məhəmməd Əhməd ibn Əsəm əl-Kufi. *Kitabul-futuh, Cuz-ul-xəmis vəs-sədisu,* Beyrut. Dərul-ədva, Lübnan, h.1411/m.1991, 344-345.

[2] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri, *Tarixi rusul vəl-muluk, IV cild, təhqiq Məhəmməd Əbul-Fəzl İbrahim,* Qahirə: Daru-l Maarif bi Mısr, 1970. IV, 155-160.

lu yürüş etmişdi. Bu yürüşlərin birində Əbdürrəhman ibn Rəbiə xəzərlərin ölkəsinin mərkəzinə doğru irəliləmiş və ordusu heç bir itki vermədən xeyli miqdarda qənimət və əsirlə geri qayıtmışdır.[3]

Ərəblərin bu hücumları qarşısında aciz qalan xəzərlər onların ölümsüz olduğunu düşünərək belə deyirdilər: "Biz elə bir millətik ki, heç kim bizimlə güc sınaya bilməzdi, ta ki, bu qövm çıxıb gəldilər və biz onlarla bacarmadıq. Bunlar ölümsüzdürlər. Əgər onları öldürmək mümkün olsaydı bizim məmləkətimizə qədər gəlib çıxa bilməzdilər".[4]

Dərbəndin müsəlmanlar tərəfindən fəthi ilə əlaqəli mənbələrin qeyd etdikləri məlumatlar haqqında daha əvvəl də söz açmışdıq. Məşhur İslam tarixçilərindən olan Təbəri və İbn Kəsir Əbdürrəhman ibn Rəbiənin Arranda olduğu dövrdə Şəhribərazın Xəzər diyarına casus göndərdiyini və bu casusla Əbdürrəhman arasında baş tutan dialoqu nəql edirlər. Bu şəxs Zul-Qərneyn səddini gördüyünü söyləyib, səddi təsvir etmişdi. Bu şəxsin təsvir etdiyi qala və sədlə Dərbənd qalasının və səddinin eyni olduğu açıq-aydın görünməkdədir.[5] Qeyd edəcəyimiz kimi, ərəblər xəzərlərin ən böyük qalalarından biri olan Bələncəri dəfələrlə mühasirəyə alsalar da, qalanı fəth edə bilməmişdilər. Əbdürrəhmanın xəzərlərə qarşı apardığı uğurlu hərbi əməliyyatlar, tarixçi Təbərinin sözləri ilə desək "kufəlilərin qənimət və ərazi ucbatından xəlifə Osmana qarşı öz hallarını dəyişdirənə qədər" davam etmişdi. Ət-Təbəri bu hadisələr haqqında "Tarix" əsərində ətraflı məlumat vermişdir.[6]

Xəlifə Osman Kufə valisi Səid ibn Asa məktub yazıb Salman ibn Rəbiəni Bab-ul-Əbvaba, Əbdürrəhman ibn Rəbiəyə köməyə göndərməsini əmr etdi. Eyni zamanda Dərbənd yaxınlığında olan Əbdürrəhmana belə bir məktub göndərdi: "Müsəlmanların bəziləri çox yemək və toxluqdan taqətsiz olublar, mən sənin onları təhlükəli vəziyyətlə qarşı-qarşıya qoya biləcəyindən ehtiyat edirəm". Çox güman ki, xəlifə Osman qənimət və ərazi bölgüsü ucbatından meydana gəlmiş narazlıq və qarışıqlığı nəzərdə tutmuş, bunun cəbhədəki əsgərlərə də təsir edə biləcəyindən ehtiyat etmişdi. Çünki Azərbaycandakı əsgərlərin bir çoxu Kufədən idilər. Bələncəri fəth etməyi qarşısına məqsəd qoyan Əbdürrəhman buna baxmayaraq Şirvandan şimal istiqamətində hərəkətə keçdi və Bələncər qalasını mühasirəyə aldı. Bu mühasirə zamanı hər iki tərəf xeyli itki

---

[3] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri, *Tarixi rusul vəl-muluk, V cild,* Tehran: nəşr yeri yox, 1362, V, 1985; İbn əl-Əsir, *əl-Kamil fit-tarix*. İstanbul: Bahar yayınları, 1986. III, 30.

[4] İbn Əsir, *əl-Kamil fit-tarix.III cild.* Beyrut: Dərul-kutubul-ilmiyyə, Lübnan, h.1407/m.1987. III, 25; Təbəri,*Tarix*,V, 2159.

[5] Təbəri, *Tarix*, V, s.1987; Əbul-Fida İsmail ibn Kəsir, *əl-Bidayə vən-nihayə*, İstanbul: nəşr yeri yox, 1994, VII, 206.

[6] Təbəri, *Tarix*, V, 1980-1990.

verdi. Eyni zamanda məşhur İslam sərkərdələrindən olan Yezid ibn Müaviyə ən-Nəhayi, Əlqəmə ibn Qeys, Midad əş-Şeybani, Əmr ibn Utbə də qətl edildilər. Mühasirənin uzanması mücahidlər arasında ruh düşkünlüyünə səbəb olmuşdu. Eyni vaxtda şimaldan gələn xəzərlər də müsəlmanlara arxadan hücum etdilər. Nəticədə iki tərəfdən sıxışdırılan müsəlmanlar arasında nizamsızlıq yarandı və Bələncər mühasirəsi xəzərlərin qələbəsi ilə başa çatdı. İslam sərkərdəsi Əbdürrəhman ibn Rəbiə də öldürüldü. Bələncər döyüşündə məşhur səhabə Salman Farisi və Əbu Hureyrə də iştirak etmişdir. Məğlub şəkildə ətrafa dağılan İslam ordusunun qalıqlarını ətrafına toplayan Salman ibn Rəbiə əvvəlcə İranın Gilan şəhərinə, oradan da Gürgana getdi. İslam ordusunun geri çəkilməsindən sonra xəzərlər İslam mücahidi Əbdürrəhman ibn Rəbinəni hörmətlə dəfn etdilər.[7]

İslam ordusunun Salman ibn Rəbiənin başçılığı ilə Samur çayını keçərək Dərbəndə yaxınlaşdığından xəbər tutan Xəzər xaqanı, ətrafındakıların etirazına baxmayaraq 300 minlik ordusu ilə şimala doğru geri çəkildi. Heç bir müqavimətə rast gəlmədən Dərbəndi ələ keçirən Salman ibn Rəbiə, şəhərdə üç gün qaldıqdan sonra xəzərləri təqib etmək məqsədilə şimala doğru hərəkət etdi. Yarqu şəhərini ələ keçirən müsəlmanlar xəzərlərin ordugahı yaxınlığında düşərgə saldılar. Miladi tarixi ilə 653-cü ildə (hicri 32) müsəlmanlarla xəzərlər yenidən Bələncər yaxınlığında qarşılaşdılar. Altı gün davam döyüşdə xeyli sayda müsəlman öldürüldü və onların məzarları Dərbəndin şimalında “Qubur-uş-şühəda” (şəhidlərin qəbirləri) adlanan yerdədir.[8] Döyüşün altıncı günündə qırx nəfər mücahidlə Xəzər xaqanının çadırına yaxınlaşan Salman ibn Rəbiə onu ələ keçirə bilməmiş və yoldaşları ilə birlikdə mühasirəyə düşərək qətl edilmişdir. Onların məzarı Dərbənd qalasının şimal divarının yaxınlığındadır və “Qırxlar qəbirstanlığı” adı ilə tanınır.

İslam ordusunun məğlubiyyətindən və Salman ibn Rəbiənin şəhadətindən sonra xəlifə Osmanın göstərişinə əsasən Hüzeyfə ibn Yəman Ərməniyə valisi təyin edilmişdir.[9]

Məşhur İslam tarixçilərindən olan Təbəri, İbn Əsir, İbn Kəsir bu hadisəni, yəni Bələncərin mühasirəsi və Əbdürrəhmanın öldürülməsini “h.32-ci il (m. 652-653)

[7] Təbəri, *Tarix*, IV cild, 304-306; Əbul-Fida İsmail ibn Kəsir, *əl-Bidayə vən-nihayə, X cil,* Misir: Bidəri-Hicr, h.1418/m.1998. X, 243-244; İbn Kəsir, *əl-Bidayə vən-nihayə*, VII, 264.
[8] İbn Əsəm əl-Kufi, *Kitabul-futuh,* Cuz-ul-xəmis vəs-sədisu, 344-345; Əbu Məhamməd Əhməd ibn Əsəm əl-Kufi, *Kitabul-Futuh.* Tərc. Z.Bünyado, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1995, 10-11.
[9] İbn Əsəm əl-Kufi, *Kitabul-futuh,* Cuz-ul-xəmis vəs-sədisu, 345; Əhməd ibn Yəhya ibn Cabir Əl-Bəlazuri, *Futuhul-Buldan,* İstanbul: Siyer yayınları, 1956. I, 329-330.

hadisələri" başlığı altında qeyd edirlər. Hadisələrin bir-birini təqibini və salnaməçilərin özlərinin qeyd etdikləri bəzi doğum və ölüm tarixlərini diqqətlə araşdırsaq bu hadisənin h.32-ci ildə baş verməsinin mümkün olmadığını görərik. Göründüyü kimi Salman ibn Rəbiə bu döyüşdən sağ qayıtmışdı. Bəlazuri Salman ibn Rəbiənin də h. 25/m. 645-646-cı ildə Dərbənddə öldürüldüyünü qeyd edir.[10] İbn Kəsir də "əl-Bidayə" adlı əsərinin VII cildinin 354-cü səhifəsində Salman ibn Rəbiənin Dərbəndə öldürüldüyünü yazır. Tarixinə gəldikdə isə İbn Kəsir, Salman ibn Rəbiə haqqında "Osman ibn Əfvanın xəlifəliyi dövründə vəfat edən, amma vəfat tarixləri dəqiq bilinməyən şəxslər" başlığı altında bəhs edir. Bəzi müasir tədqiqatçıların bu haqda verdikləri bir-birinə zidd məlumatlara əsaslanaraq, bu iki şəxsdən sadəcə birinin Dərbənddə öldürüldüyü fikri də doğru deyil. Yaqut əl-Həməvi "Mucəmul-Buldan" əsərinin I cildinin 361-ci səhifəsində bu iki qardaşın (Salman və Əbdürrəhman) hər ikisinin məzarının Bab-ul-Əbvab yaxınlığında olduğunu yazır. Əbdürrəhmanın öldürüldüyü döyüşün, tarixi mərhələsinə gəldikdə isə bunun h. 25/m. 645-646-cı ildən daha tez baş verməsi mümkün deyil. Salman, Bəlazurinin qeyd etdiyi kimi h.25/m. 645-646-cı ildə vəfat etdiyi halda, gördüyümüz kimi bu döyüşdən sağ salamat qayıtmışdı. Bundan əlavə o geri qayıdarkən, salnaməçilərin qeyd etdikləri kimi, yanında Salman Farisi də var idi. İbn Quteybə Dinəvəri "Kitabul-Məarif" adlı əsərinin 117-ci səhifəsində Salman Farisinin Osman ibn Əfvanın xəlifəliyinin əvvəllərində Mədaində vəfat etdiyini qeyd edir ki, bu da ən çox h.27/m.647-648-ci ildə ola bilər. Bundan başqa Təbəri "Tarix" əsərinin V cildinin 1988-ci səhifəsində Əbdürrəhmanın öldürülməsindən bəhs edərkən yazır ki, bu hadisə baş verdiyi il Əbdülməlik ibn Mərvan və Yezid ibn Müaviyə anadan olmuşdular. Həsən İbrahim "İslam tarixi" əsərinin I cildinin 371-ci səhifəsində qeyd edir ki, Əbdülməlik ibn Mərvan h.26/m.647-ci ildə anadan olmuşdur. Zəhəbi isə "Siyəri Əlamun-Nubəla" adlı əsərinin IV cildinin 36-cı səhifəsində yazır ki, Yezid ibn Müaviyə h.60/m.680-cı ildə atasının ölümündən sonra hakimiyyətə gələrkən 33 yaşında olmuşdur. Buradan da məlum olur ki, Yezid ibn Müaviyə də miladi tarixi ilə 647-ci ildə (hicri 26) anadan olmuşdur. Göründüyü kimi, Bələncər müharibəsinin və Əbdürrənman ibn Rəbiənin ölüm tarixinin h.32/m.652-653-cü il olması mümkün deyil.

Xəlifə Ömərin (634-644) vəfatından qısa müddət sonra Azərbaycanda III xəlifə Osmana qarşı üsyan baş verdi. Bu üsyanı yatırmaq istəyən xəlifə Osman, Vəlid ibn Uqbəni Kufə valiliyinə təyin etmiş və Azərbaycana gedərək vəziyyəti nəzarət altına

[10] Bəlazuri, *Futuhul-Buldan*, I, 320.

almağı əmr etmişdi. Miladi tarixi ilə 644-645-ci illərdə (hicri 24) Salman ibn Rəbiəni böyük bir ordu ilə yola salan Vəlid ibn Uqbə bir neçə gün sonra onun ardınca öz ordusu ilə Kufədən Azərbaycana doğru hərəkət etdi. Məşhur sərkərdələrdən biri olan Abdullah ibn Şibl ordusu ilə birlikdə Muğana gələrək üsyançıları məğlub edib onlardan bəzilərini əsir götürdü. Azərbaycan əhalisi Vəlid ibn Uqbədən, Hüzeyfə ibn Yəmanla bağladıqları müqavilənin yenilənməsini xahiş etdilər. Vəlid onların istəyini qəbul edərək həmin şərtlərlə yeni müqavilə bağladı.[11]Salman ibn Rəbiə isə əmrindəki on iki min nəfərlik ordu ilə Ərməniyəyə gələrək o vaxta qədər fəth olunmamış ərazilərdə bəzi hərbi əməliyyatlar apararaq xeyli qənimət və əsirlə Vəlid ibn Uqbənin yanına qayıtdı.[12]

Tanınmış Rus alimlərindən olan M.Artamonov Salman ibn Rəbiənin Ərməniyəyə səfər edərkən Dərbəndə qədər irəliləməsinin mümkün olduğunu yazır.[13]Belə güman etmək olar ki, Salman Ərməniyədə olarkən onun böyük qardaşı Əbdürrəhman ibn Rəbiə də Dərbənd ətrafında idi və öz ordusu ilə Bələncər qalasını mühasirəyə almışdı. Bu döyüşdə Əbdürrəhman ibn Rəbiə öldürüldükdən sonra, onun ordusundan sağ qalanlar Salman ibn Rəbiənin ordusu ilə birləşərək Cənubi Azərbaycana qayıtmışdılar.[14] Bu hadisədən qısa müddət sonra yenidən Dərbəndə hücum edən Salman ibn Rəbiə xəzərlərə qarşı baş verən Bələncər döyüşündə öldürülmüşdür.

## II. Əməvilər dövründə Ərəb-Xəzər müharibələri

Xəlifə Əli ibn Əbu Talibin (656-661) şəhid edilməsindən sonra hakimiyyəti ələ keçirən Müaviyə ibn Əbu Süfyan (661-680) dövrü Ərəb-Xəzər müharibələrinin nisbi sakitlik dövrü kimi xarakterizə edilir. Bu sakitliyin səbəbi Müaviyə ibn Əbu Süfyanın xilafəti ələ keçirmək üçün var qüvvəsini xəlifə Əliyə qarşı yönəltməsi idi. Xəlifə Əlinin qətlindən sonra hakimiyyəti ələ keçirən Müaviyə, imperator IV Konstantinin ölkədə olmamasından istifadə edərək Bizans torpaqlarına hücum etmişdir. Paytaxt Konstantinopulu ələ keçirməyi qarşısına məqsəd qoyan Müaviyə, 670-ci ildə Mərmərə dənizindən keçərək, Qapıdağ yarımadasını ələ keçirməklə paytaxtı tutmaq üçün strateji bir məkan əldə etmişdir. 674-678-ci illərdə Konstantinopolu mühasirədə saxlayan

[11] İbn əl-Əsir, *əl-Kamil fit-tarix, II cild,* Beyrut: Dərul-kutubul-ilmiyyə, Lübnan, h.1407/m.1987. II, 477-478; Təbəri, *Tarix*, IV, 246-247; Təbəri, Tarix, V, 2092; İbn Kəsir, *əl-Bidayə vən-nihayə,* VII, 245-246.
[12] İbn əl-Əsir, *əl-Kamil fit-tarix*, II, 478; Təbəri, *Tarix,* IV, 247; Təbəri, *Tarix,* V, 2092
[13] Artamonov, M.İ, *İstoriya hazar.* Leninqrad: İzd. Qos. Ermitaja, 1962, 179
[14] İbn Əsir, *əl-Kamil fit-tarix*, III, 137

Əməvi orduları şəhəri ələ keçirə bilməmişlər.[15] Bir il sonra 679-cu ildə Bizansla müqavilə bağlayan Müaviyə, müqavilənin şərtlərinə əsasən işğal etdiyi Egey adalarını geri qaytarmaqla yanaşı, 1500 kq qızıl, 50 kölə və 50 at xərac vermişdir.[16] Xəlifə Yezid ibn Müaviyənin dövründə baş verən qarışıqlıqdan istifadə edən xəzərlər bulqarları məğlub edərək, Qərbdə Azov ətrafı əraziləri və Şimali Qara dəniz sahillərinə qədər Krımın bir hissəsini ələ keçirdilər.[17] Xilafət daxilindəki ziddiyyətlər və vətəndaş müharibəsi I Yezidin (680-683) dövründən başlayaraq, Əbdülməlik ibn Mərvanın (685-705) hakimiyyətinin ilk yarısına qədər davam etdi və bu dövr Xəzər xaqanlığının lehinə işlədi.

708-737-ci illəri əhatə edən otuz illik Ərəb-Xəzər müharibəsi Məsləmə ibn Əbdülməlikin Dərbəndə hücumu ilə başlamışdır. İbn Əsəm əl-Kufiyə görə əl-Cəzirə, Azərbaycan və Ərməniyənin valisi Məhəmməd ibn Mərvan idi. Onun ordusunda qardaşı oğlu Məsləmə ibn Əbdülməlik də yer almışdı.[18] 693-cü ildə Dərbəndə hücüm etmək istəyən Məhəmməd ibn Mərvan Ərməniyə əhlinin üsyan etməsi ilə əlaqədar olaraq geri qayıtmışdır. Bu üsyan nəticəsində on mindən müsəlman sərkərdə Ubeydullan ibn Əbi Şeyx əl-Aviyylə birlikdə öldürülmüşdür. Ərməniyəyə qırx minlik qoşunla daxil olan Məhəmməd ibn Mərvan onları məğlub etməklə bərabər bir çoxunu da kilsələrdə yandırdı.[19] VIII əsrin əvvələrini əhatə edən otuz illik Ərəb-Xəzər müharibələrində ərəb ordularına başçılıq edən Məsləmə ibn Əbn Əbdülməlik, əl-Cərrah ibn Abdullah, Səid ibn Amr əl-Hərəşi və Mərvan ibn Məhəmməd kimi məşhur sərkərdələr Azərbaycan və Ərməniyyə valiləri olmuşlar.

Ərməniyyə üsyanının yatırılmasından sonra Məhəmməd ibn Mərvan qardaşı oğlu Məsləmə ibn Əbdülməliki əl-Babı (Dərbənd) üzərinə göndərdi. Həmin vaxt əl-Babı səksən min xəzər ordusu qoruyurdu. Şəhəri uzun müddət mühasirədə saxlayan ərəblər sonda xəyanət nəticəsində əl-Babı ələ keçirmişdilər. Bir müddət şəhərdə qalan Məsləmə daha sonra ələ keçirdiyi qənimətləri götürərək Ərməniyyə valisi əmisi Məhəmməd ibn Mərvanın yanına qayıtmışdır.[20]

713-714-cü il Ərəb-Xəzər döyüşlərindən sonra, ərəb orduları Bizans istiqamətində hücumlarını artırdılar. Kiçik Asiyadan keçən Məsləmə ibn Əbdülməlik Konstantinopolu

[15] Artamonov, *İstoriya hazar*, 195.
[16] Dunlop D.M, *Hazar Yahudi tarihi*. İstanbul: Selinke yayınları, çev. Zahide Ay, 2008, 155-156.
[17] Pletnova S.A, *Hazarı, evrei i slavyane, Tom 16*, hazarı i hazarskiy kaqanat izd, Qeşarim most, Kulturı 2005 q, 568 st. 22.
[18] İbn Əsəm əl-Kufi,*Kitabul-futuh.* Cuz-ul-xəmis vəs-sədisu, 351.
[19] İbn Əsəm əl-Kufi, *Kitabul-futuh,* Cuz-ul-xəmis vəs-sədisu, 352.
[20] İbn Əsəm əl-Kufi, *Kitabul-futuh,* Cuz-ul-xəmis vəs-sədisu, 353-354.

mühasirəyə almışdır. 717-718-ci illərdə Azərbaycan və Ərməniyyəyə hücum edən xəzərlər çoxlu insan qətlə yetirdilər.[21] Əl-Yəqubiyə görə xəzərləri məğlub edən Əbdüləziz ibn Xatim, ələ keçirdiyi əlli əsiri xəlifə Ömər ibn Əbdüləzizin (717-720) yanına göndərdi.[22] Bu məlumat ət-Təbəridə də eyni şəkildə qeyd olunur.[23] Xəlifə Ömər ibn Əbdüləziz hakimiyyətə gəlməsindən on ay sonra Konstantinopolun mühasirəsini dayandıraraq ordunu geri çağırmışdır. Ərəbdilli mənbələrdə bu xəlifənin sülhsevərliyi ilə izah olunur. II Yezid ibn Əbdülməlikin (720-724) dövründə 721-722-ci illərdə xəzərlərə qarşı səfər edən Ərməniyyə valisi Məlakə ibn Səffar əl-Bəhrani məğlub edilmişdir. Bu məğlubiyyətdən sonra xəlifə II Yezid əl-Cərrah ibn Abdullah ibn Həkəmi Azərbaycan və Ərməniyyə valisi təyin etdi.[24]Xəfənin verdiyi təlimatlar əsasında hərəkət edən əl-Cərrah ordusu ilə birlikdə Azərbaycana çatdı. Bundan xəbər tutan xəzərlər əl-Baba çəkildilər. Xəzərləri təqib edən əl-Cərrah Bərdəyə qədər gəldi. Bərdədə dincələn ərəb ordusu daha sonra Kür çayını keçib Bab əl-Əbvaba doğru hərəkət edərək Dərbəndin iki fərsəxliyində axan Rubas çayının sahilinə çatdılar. Dağlı məliklərini yanına çağıran əl-Cərrah onların bəzilərindən xəzərlərə qarşı döyüşmək üçün razılıq aldı. Onlarla birlikdə xəzərləri məğlub edən Ərəb ordusu onları əl-Babdan çıxartdı.[25] Əl-Babdan sonra xəzərlərin əl-Barfua adlandırdığı şəhərə gələn əl-Cərrah onlarla sülh bağlayaraq bəzilərini Qəbələnin əl-Ğəniyyə adlı kəndinə köçürdü. Bələncərin fəthindən sonra Səməndərə hücum etmək istəyən əl-Cərrah xəzərlərin böyük ordu döyüşə hazırlaşdıqlarını öyrəndikdə əl-Kil dağından keçərək Şəki adlı vilayətə çatdılar.[26] II Yezidin ölümündən sonra əl-Cərrahın yerinə xəlifə Hişam tərəfindən Azərbaycan və Ərməniyyə valisi olaraq Məsləmə ibn Əbdülməlik təyin edilmişdir. 728-ci ildə xəzərlərə qarşı yürüşə başlayan Məsləmə ibn Əbdülməlik uğur qazanmışdır. Bu yürüş tarixdə "palçıq döyüşü" adlanır.[27] Bir müddət sonra xəlifə Hişam tərəfindən əl-Cərrah ibn Abdullah ikinci dəfə Azərbaycan və Ərmniyyə valisi təyin edilmişdir.[28] Dərhal yürüşə başlayan əl-Cərrah 729-cu ildə Tiflis keçidindən keçərək xəzərlərin əl-Beyda şəhərini ələ keçirdi. Ərəb ordusunun geri qayıtmasından bir il sonra hücuma keçən Xaqanın oğlu

---

[21] Xəlifə ibn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat, II cild,* ər-Riyad: təbatis-səniyəti, h.1405/m.1985. II, 316.
[22] Əhməd ibn Əbi Yaqub Əl-Yaqubi, *Tarixi-Yəqubi, II cild,* Beyrut: Lübnan, h.1431/m.2010. II, 228.
[23] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri, *Tarixi rusul vəl-muluk, VI cild.* Qahirə: Daru-l Maarif bi Mısr, 1971, VI, 553-554.
[24] İbn Xəyyat. *Tarixu Xəlifə bin Xəyyat,* II, 328-329.
[25] Əbu Məhammıəd Əhməd ibn Əsəm əl-Kufi, *Kitab əl-Fütuh, cuz-us-səbiu vəs-səminu,* Beyrut: Dərul-ədva, Lübnan. h.1411/m.1991. 234-235.
[26] İbn Əsəm əl-Kufi, *Kitab əl-Fütuh,* cuz-us-səbiu vəs-səminu, 236-238.
[27] İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat,* II, 339-340.
[28] İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat,* II, 341.

Ərməniyyəyə daxil olaraq Ərdəbili mühasirəyə aldı. Baş verən döyüşdə Xaqanın oğlunun başçılığı altında olan Xəzər ordusu qalib gəldi. Əl-Cərrahın öldürülməsindən sonra xəzərlər xeyli qənimətlə geri qayıtdılar.[29] Bu hadisə ət-Təbəri, İbn əl-Əsr və İbn Əsəm əl-Kufidə bir az fərqli şəkildə qeyd olunmuşdur.[30] Bu məğlubiyyətdən sonra xəlifə Hişamın əmri ilə xəzərlərə qarşı Səid ibn Əmr əl-Hərəşi göndərildi. Xəzərlərə qarşı uğur qazanan Səid ibn Əmr əl-Hərəşi əvvəcə Xilatı sonra isə Bərdəni də ələ keçirdi. Daha sonra Beyləqanı və Varsanı da fəth edərək bu barədə xəlifə Hişama xəbər verdi.[31] Qısa müddət sonra xəlifə Hişamın əmri ilə Azərbaycan və Ərməniyyə valisi olaraq Məsləmə ibn Əbdülməlik təyin edildi. Şamdan çıxıb Bərdəyə gələn Məsləmə ibn Əbdülməlik Səid ibn əl-Hərəşini həbs etsə də qısa müddət sonra xəlifənin əmri ilə sərbəst buraxmışdır.[32] əl-Yəqubiyə görə Səib ibn Əmr əl-Hərəşi Qəbələ şəhərində həbs edilmişdir.[33] Xəzərlərə qarşı yürüşə başlayan Məsləmə Şirvan torpaqlarına daxil olaraq uzun mühasirədən sonra Hazyan qalasını sülh yolu ilə ələ keçirdi. Daha sonra Şirvan, Məsqət, Lakz (Kura) və Tabasaran ərazilərini ələ keçirən Məsləmə ibn Əbdülməlik yerli əhali sülh bağladı.[34] Məsləmədən sonra xəlifə Hişam ibn Əbdülməlik Azərbaycan, Ərməniyyə və əl-Cəzirə valisi olaraq Mərvan ibn Məhəmmədı təyin etdi. Mərvan ibn Məhəmməd Azərbaycan, Ərməniyyə və Qafqaz dağlarına yürüşə göndərildi. Bu yürüşlərin birində Allanın üç qalası fəth edildi. Digər yürüşdə Tuman şah üzərinə gedən Mərvan onu öz hakiyyəti altına aldı. Mərvan ibn Məhəmməd bu barədə xəlifə Hişama xəbər verdikdə xəlifə onu məmləkətinə çağırmışdır. Xəlifə ibn Xəyyat.[35] Sonra Zirikirana daxil olan Mərvan onlarla sülh bağlayaraq öz hakimiyyətinə tabe etdi. Daha sonra Həmazinə daxil olan Mərvan, onlarla vuraşaq bir çoxunu qətlə yetirdi. Bir çox şəhərləri fəth edən Mərvan ibn Məhəmməd qənimətləri əl-Bab şəhərində toplayaraq oradan çıxmadı.[36] 744-cü ilə qədər Zaqafqaziyada qalan Mərvan ibn Məhəmmədin valilik dövrü mürəkkəb bir dövr olmuşdur. Həmin dövrdə daxili üsyanları yatırmaqla məşğul olan Mərvan, eyni zamanda Bizansla da mübarizə aparmaq məcburiyyətində idi. Digər tərəfdən də Əməvi xilafətinə son qoymaq istəyən Abbasi tərəfdarları Xorasanda

---

[29] İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat*, II, 341-342.
[30] Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri, *Tarixi rusul vəl-muluk, VII cild,* Qahirə: h.1384/m.1965. VII, 70; İbn əl-Əsir, *əl-Kamil fit-tarix, IV cild*, Beyrut: Lübnan, h.1407/1987. IV, 393; İbn Əsəm əl-Kufi, *Kitab əl-Fütuh*, cuz-us-səbiu vəs-səminu, 241-242.
[31] İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat*, II, 342-343.
[32] İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat*, II, 343.
[33] Yəqubi, *Tarixi-Yəqubi*, II, 245.
[34] Yəqubi, *Tarixi-Yəqubi*, II, 246; İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat*, II, 344.
[35] İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat*, II, 348.
[36] Yəqubi, *Tarixi-Yəqubi*, II, 246; İbn Xəyyat, *Tarixu Xəlifə bin Xəyyat*, II, 351-352.

qiyam etmişdilər. 744-cü ildə II Vəlidin öldürülməsindən sonra hakimiyyət uğrunda mübarizə aparan Mərvan ibn Məhəmməd eyni ildə Əməvi xəlifəsi təyin edilmişdir. Onun xilafəti dövründə əməvilərin əsas əsas dayağı hesab edilən Şamlılar, xüsusilə Kəlbli tayfası xəlifəyə qarşı üsyan etmişdir. Bundan əlavə Xorasanda Haris ibn Sureyc, Mosulda Zəhhaq ibn Qeys və onun xələfi Şeybani Həruri, Məkkədə isə Abdullah ibn Yəhya əl-Hədraminin üsyanları bir-birini əvəz edirdi. Bu üsyanlar nətucəsində Əməvi xilafəti daha da zəiflədi. Bundan istifadə edən Abbasilər 750-ci ildə Böyük Zab çayı sahilində baş verən döyüşdə Əməvi ordusunu məğlub etdilər və xəlifə II Mərvan ibn Məhəmməd öldürüldü.

**Nəticə**

Ərəb xilafəti ilə xəzərlər arasında müharibələr nəticəsində, Ərəblər Albaniyanı əlində saxladı, Dərbəndi və Dağıstanın bir hissəsini ələ keçirdilər. Xəzərlər üzərində qələbə, ərəblər üçün strateji əhəmiyyət daşıyırdı. Birincisi, onlar güclü rəqiblərini zərərsizləşdirdilər. İkincisi, Dərbənd və Dəryal keçidini möhkəmləndirərək, Cənubi Qafqazı müdafiə etmiş oldular. Üçüncüsü, Bizans, özünün qüdrətli müttəfiqindən kənarlaşdırıldı. Bu qarşılıqlı hücumlarda Xəzər xaqanlığının mövqeyinə gəlincə, xəzərlər zamanın ən qüdrətli ordusu ilə mübarizədə tam məğlub olmadılar. Digər tərəfdən, bu müharibə onun əhalisi arasında daxili konsildasiyada mühüm faktor oldu. Ərəb-Xəzər müharibələri dövrü, əsasən, Əməvi dövrünə təsadüf edir. Həmin dövrü Xəzər dövlətçiliyinin birinci hissəsi kimi qiymətləndirmək olar. Bu dövr, Xəzər dövlətinin yaranması, möhkəmlənməsi, ərazilərinin genişləndirilməsi, ən başlıcası isə, Ərəb xilafəti kimi güclü ideoloji silahla silahlanmış bir imperiyanın şimala doğru yürüşünün qarşısını məharətlə ala bilən bir güc kimi xarakterizə edə bilərik.

**Mənbə və ədəbiyyat siyahısı**

ƏBU CƏFƏR MƏHƏMMƏD İBN CƏRİR ƏT-TƏBƏRİ, *Tarixi rusul vəl-muluk, IV cild,* Qahirə: Daru-l Maarif bi Mısr, 1970, təhqiq Məhəmməd Əbul-Fəzl İbrahim.

ƏBU CƏFƏR MƏHƏMMƏD İBN CƏRİR ƏT-TƏBƏRİ, *Tarixi rusul vəl-muluk, VI cild.* Qahirə: Daru-l Maarif bi Mısr, 1971.

ƏBU CƏFƏR MƏHƏMMƏD İBN CƏRİR ƏT-TƏBƏRİ, *Tarixi rusul vəl-muluk, VII cild,* Qahirə: Daru-l Maarif bi Mısr, h.1384/m.1965.

ƏBU CƏFƏR MƏHƏMMƏD İBN CƏRİR ƏT-TƏBƏRİ, *Tarixi rusul vəl-muluk. V cil,* Tehran: yayın yeri ve yayın evi yok, 1362.

ƏBUL-FİDA İSMAİL İBN KƏSİR, *əl-Bidayə vən-nihayə.* İstanbul: yayın yeri ve yayın evi yok, 1994.

ƏBUL-FİDA İSMAİL İBN KƏSİR, *əl-Bidayə vən-nihayə, X cild,* Misir: Bidəril-Hicr, h.1418/m.1998.

ƏBU MƏHƏMMƏD ƏHMƏD İBN ƏSƏM ƏL-KUFİ, *Kitabul-futuh, Cuz-ul-xəmis vəs-sədisu,* Beyrut: Dar-ul Ədva, Lübnan, h.1411/m.1991.

ƏBU MƏHƏMMƏD ƏHMƏD İBN ƏSƏM ƏL-KUFİ, *Kitab əl-Fütuh, cuz-us-səbiu vəs-səminu,* Beyrut: Dar-ul Ədva, Lübnan. h.1411/m.1991.

ƏBU MƏHƏMMƏD ƏHMƏD İBN ƏSƏM ƏL-KUFİ, *Kitabul-Futuh.* Tərc. Z.Bünyadov, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1995.

ƏHMƏD İBN ƏBİ YAQUB ƏL-YƏQUBİ, *Tarixi-Yəqubi, II cild,* Beyrut: Şirkət-əl Aalami, h.1431/m.2010.

ƏHMƏD İBN YƏHYA İBN CABİR ƏL-BƏLAZURİ. *Futuhul-Buldan,* İstanbul: Siyer yayınları, 1956.

DUNLOP D.M. *Hazar Yahudi tarihi, çev.* Zahide Ay, İstanbul: Selinke Yayınları, 2008.

İBN ƏL-ƏSİR, *əl-Kamil fit-tarix,* İstanbul: Bahar yayınları, 1986.

İBN ƏL-ƏSİR, *əl-Kamil fit-tarix, II cild,* Beyrut: Dərul-kutubul-ilmiyyə, h.1407/m.1987.

İBN ƏL-ƏSİR, *əl-Kamil fit-tarix, III cild,* Beyrut: Dərul-kutubul-ilmiyyə, h.1407/m.1987.

İBN ƏL-ƏSİR, *əl-Kamil fit-tarix, IV cild,* Beyrut: Dərul-kutubul-ilmiyyə, h.1407/1987.

XƏLİFƏ İBN XƏYYAT, *Tarixu Xəlifə bin Xəyyat, II cild*, ər-Riyad: təbatis-səniyəti, h.1405/m.1985.

ARTAMONOV M.İ, *İstoriya hazar*, Leninqrad: İzd. Qos. Ermitaja, 1962.

PLETNOVA S.A, *Hazarı, evrei i slavyane. Tom 16*, hazarı i hazarskiy kaqanat izd. Qeraşim most, Kulturı 2005 q, 568 st.